

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

**Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti**

Sayı: 150 (23.562)

9 sentyabr 2020-ci il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


# Bizim gücümüz birliyimizdədir

## Naxçıvanda keçirilən Azərbaycan-Türkiyə birgə hərbi təlimləri bunu bir daha təsdiq etdi

***Son dövrlərdə Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında qarşılıqlı və yüksələn xətlə davam edən əlaqələrin mühüm istiqamətlərindən birini də hərbi əməkdaşlıq sahəsində həyata keçirilən tədbirlər təşkil edir. Həm ötən ay, həm də sentyabrın 5-də hər iki ölkənin Silahlı Qüvvələrinin şəxsi heyətinin və hərbi-texniki vasitələrinin iştirakı ilə keçirilən hərbi təlimlər təkcə Türkiyə və Azərbaycanda deyil, digər ölkələrdə də diqqətlə izlənilir.***



Xüsusilə ən son – Azərbaycan-Ermənistan dövlət sərhədinin Tovuz rayonu istiqamətində ermənilərin pozucu və təxribat xarakterli hücumundan sonraya təsadüf edən bu təlimlər düşmən ölkədə narahatlıqla qarşılanır. Təbii ki, düşmən bu təxribatına görə öz payını artıqlaması ilə aldı və ordumuz bir daha sübut etdi ki, ölkəmizə qarşı uzanan istənilən çirkin əli kəsməyə hazır və qadirdir. Eyni zamanda düşmən bunu da anlamamış deyil ki, Azərbaycan müstəqil ölkədir və digər ölkələrlə əməkdaşlıq əlaqələrini də müstəqil olaraq öz mənafeyinə uyğun qurur. Cənubi Qafqazın regional güc mərkəzi sayılan Azərbaycan digər sahələrlə yanaşı, hərbi sahədə də böyük hədəflərə qarşı addım-addım irəliləyir və milli ordumuzun bu gün dünyanın ən güclü 50 ordusundan biri olması bu sahədə böyük yol keçməyimizdən xəbər verir. Eyni zamanda Azərbaycan öz ordusunun yüksək səviyyədə hazırlığını daim diqqət mərkəzində saxlayır və keçirilən təlimlər də buna xidmət edir. Digər tərəfdən hər iki ölkənin silahlı qüvvələri tərəfindən keçirilən təlimlərin Naxçıvanda təşkil olunması muxtar respublikanın hərbi təhlükəsizliyi baxımından böyük əhəmiyyət kəsb edir. Hamımıza məlumdur ki, Azərbaycan dövləti tərəfindən Naxçıvan Muxtar Respublikasının təhlükəsizliyi daim prioritet məsələlərdəndir və son illərdə bununla bağlı çox mühüm addımlar atılıb. Belə ki, muxtar respublikanın təhlükəsizliyinin təmin edilməsi Azərbaycan Silahlı Qüvvələrinin tərkibində, lakin müharibə şəraitində müstəqil koordinasiya səlahiyyətlərinə malik orduya – Əlahiddə Ümumqoşun Orduya həvalə olunub. Bu ordu yarandığı dövrdən indiyədək mühüm inkişaf mərhələləri keçərək müasir hərbi-texniki vasitələrlə təmin edilib, şəxsi heyətin peşəkarlığı dəfələrlə artırılıb. Bütün bunlarla bərabər, istənilən ordunun döyüş hazırlığı təlimlərdən asılıdır. Çünki təlimlər nəzəri biliklərin praktik icrası baxımından sınaq meydanı sayılır. Əlahiddə Ümumqoşun Ordunun şəxsi heyəti bundan əvvəl də qardaş ölkənin hərbçiləri ilə birgə təlimlərdə iştirak edib. Lakin bu-dəfəki təlimlər miqyasına və konsepsiyasına görə əvvəlkilərdən xeyli fərqlənir. Təsadüfi deyil ki, bu təlimlərə xarici mətbuatda da geniş yer verilib.







Hər şeydən əvvəl, məlumat verildiyi kimi, sentyabrın 5-də keçirilən hərbi təlim Türkiyə və Azərbaycan respublikaları arasında imzalanan hərbi əməkdaşlıq haqqında sazişə əsasən reallaşdırılıb. Həmçinin bu, iki ölkənin quru qoşunları və hərbi hava qüvvələrinin iştirakı ilə birgə genişmiqyaslı döyüş atışlı taktiki və taktiki-uçuş təliminin birinci mərhələsi idi. Məlumata görə, təlimin hazırlanması və keçirilməsinə, ümumilikdə, 5 min nəfərə qədər, döyüş atışlı mərhələnin keçirilməsinə isə 2 min 600-dən artıq şəxsi heyət cəlb edilmişdi. Bundan başqa, 200-dən artıq tank və digər zirehli texnika, 180-ə yaxın müxtəlifçaplı raket və artilleriya qurğusu, yaylım atəşli reaktiv sistemlər və minaatan, 18 təyyarə, helikopter və pilotsuz uçuş aparatı, 30-dan çox hava hücumundan müdafiə vasitəsi və 320-yə yaxın avtomobil texnikası iştirak edirdi. Təlimə hazırlıq dövründə birgə qərargahlar tərəfindən keçirilən məşqlərdə müxtəlif səviyyədə qərargahlar arasında qarşılıqlı əlaqənin təşkili diqqət mərkəzində saxlanılmış, düşmən fəaliyyətlərinin təqlid edilməsi məqsədilə təlim sahəsində 28 hədəf rayonunda 800-ə yaxın hədəf və 90-dan çox maketdən istifadə edilmişdir. Yaradılmış hədəf rayonunun 100 faizi, hədəflərin 85 faizdən, maketlərin isə 90 faizdən çoxu məhv edilmişdir. İdarəetmənin və atəşin düzgün planlaşdırılması nəticəsində 32 raketə, 220 iriçaplı mərmiyə, 4 aviasiya bombasına və 7800-dən çox atıcı silahların döyüş sursatına qənaət edilmişdir.

Diqqətçəkən məsələlərdən biri də təlimlərə Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyi, "Naxçıvan" Əlahiddə Sərhəd Diviziyası, "Naxçıvan" Əməliyyat Briqadası və Naxçıvan Dövlət Təhlükəsizliyi Xidmətinin xüsusi təyinatlı bölmələrinin də cəlb olunması idi. Təlimin ssenarisində bu birliklərin iştirakı ilə bir sıra istiqamətlər üzrə əməliyyatlar hazırlanaraq icra olunmuş, döyüş təyyarələri və helikopterlərin keçidi ilə təlim başa çatmışdır. Əldə olunan nəticələrə görə, təlimdə qarşıya qoyulmuş vəzifələrin icrasına yüksək səviyyədə nail olunmuşdur.

Qeyd edək ki, bu genişmiqyaslı təlimi Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov və Türkiyə Respublikasının 3-cü Ordu Komandanı, general-polkovnik Şərəf Öngay izləmişlər. Ali Məclisin Sədri keçirilən təlimi yüksək qiymətləndirərək demişdir: ***"…Bu gün Azərbaycan-Türkiyə əlaqələri strateji tərəfdaşlığa əsaslanır və bunun tərkib hissəsi kimi ordu quruculuğu sahəsində ardıcıl tədbirlər görülür. Ölkələrimiz arasındakı qarşılıqlı hərbi əməkdaşlıq birliyimizi daha da möhkəmləndirir. Keçirilən birgə hərbi təlim də göstərdi ki, bizim gücümüz birliyimizdədir… Silah və texnika təminatı hələ güclü ordu yaratmaq demək deyil. O ordu güclüdür ki, onun şəxsi heyətində vətənpərvərlik ruhu və peşəkarlıq vardır. Hərbi təlimdə qarşıya qoyulan vəzifələrin uğurla yerinə yetirilməsi də bir millətin, iki dövlətin ordularının yüksək döyüş qabiliyyətinə və birliyə malik olduğunu təsdiq etdi".***

Türkiyə Respublikasının 3-cü Ordu Komandanı, general-polkovnik Şərəf Öngay isə keçirilən təlimlə bağlı fikirlərini belə ifadə etmişdir: *"Birgə təlim Türkiyə-Azərbaycan qardaşlığının daha bir ifadəsinə çevrildi. Ordular arasında ikitərəfli əlaqələrin genişləndirilməsi nəticəsində təlim planauyğun şəkildə icra olundu. Müasir silah və texnikalara sahib olmaq döyüşün qazanılması demək deyil. Vacib olan bu silah və texnikalardan peşəkarlıqla istifadə edə bilən şəxsi heyətin olmasıdır. Döyüş cəsur və igid əsgərlərlə qazanılır. Bu gün keçirilən təlim bunun bariz nümunəsidir. Təlim zamanı hədəflərin sərrast vurulması dosta güvən, düşmənə isə gözdağıdır".*

Həmçinin təlimdən sonra silahlanmaya yeni qəbul edilən hərbi radiokəşfiyyat vasitələrinə baxış olmuş, Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamı ilə Əlahiddə Ümumqoşun Ordunun zabitlərindən bir qrupuna orden və medallar təqdim edilmiş, təlimdə fərqlənən zabit, gizir və əsgərlər qiymətli hədiyyələrlə mükafatlandırılmışdır.

Keçirilən təlim ordumuz, muxtar respublikamız üçün bir çox əhəmiyyətli tərəfləri ilə seçilir. İlk olaraq bu təlim **"bir millət, iki dövlət"**in sarsılmaz birliyini ortaya qoyur. Təlimdəki əsas məqsəd hər iki tərəfin qoşun birləşmələri arasında təcrübə mübadilələrinin genişləndirilməsi, idarəetmənin təmin edilməsi, qərargahlar arasında əlaqələrin təşkili olduğundan burada hər iki tərəf üçün mühüm təcrübələrin qazanıldığı şübhəsizdir. Birinci ona görə ki, Azərbaycan hazırda müharibə vəziyyətində olan, Türkiyə isə birbaşa hansısa ölkə ilə müharibə vəziyyətində tərəf olmasa da, öz təhlükəsizliyi baxımından sərhədlərində daim müxtəlif güclərlə bu və ya digər şəkildə mübarizə aparan ölkədir və hər iki tərəf müəyyən təcrübəyə malikdir. Keçirilən təlim isə bu cür təcrübələrdən yararlanmaq imkanı verir. Digər tərəfdən müharibə şəraitində qərargahlar arasında əlaqələrin, həmçinin vahid koordinasiyanın təşkili döyüşün qazanılması üçün əsas amillərdən sayıldığından burada da mühüm perspektivlərin əldə olunduğu şübhəsizdir. Bu perspektivlərin əhəmiyyətlilik dərəcəsini artıran odur ki, digər ölkələrin təlim təcrübəsindən fərqli olaraq burada hər iki tərəf üçün dil baryeri yoxdur, vətənpərvərlik ruhu mental dəyərlərlə uzlaşır, təkcə təlimdə deyil, həyatda da ümumi hədəflər eynidir və sair.

*Yeri gəlmişkən, təlimlərdə Türkiyə Silahlı Qüvvələrinin 3-cü Ordu Komandanlığının təmsil olunması geotaktiki baxımdan əhəmiyyət daşıyır ki, bu da Naxçıvan-Türkiyə hərbi əlaqələrində daim diqqət mərkəzində saxlanılıb. Ümumilikdə isə sentyabrın 5-də muxtar respublikamızda keçirilən hərbi təlimlər ordularımızın gücünü bir daha göstərməklə, düşmənimizə də növbəti gözdağı oldu.*

**Səbuhi HƏSƏNOV**

# Dövlət orqanlarının ixtisaslı kadrlarla təmin olunması diqqətdə saxlanılır

*Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya fəaliyyətində peşəkarlığın və keyfiyyətin artırılması, şəffaflıq və obyektivliyin təmin edilməsi, dövlət qulluğuna dair qanunvericiliyin tətbiqinə nəzarətin gücləndirilməsi istiqamətində tədbirləri avqust ayı ərzində də davam etdirmişdir.*

Komissiyanın test mərkəzində 17-22 avqust tarixlərində muxtar respublikanın dövlət ümumi təhsil müəssisələrində çalışan müəllimlərin bilik və bacarıqlarının qiymətləndirilməsinin aparılması üçün test imtahanları keçirilmişdir. Sənəd təqdim edən 101 nəfərdən 88-i test imtahanında iştirak etmiş, onlardan 84-ü keçid balını toplamışdır.

Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin Dövlət Tikintidə Təhlükəsizliyə Nəzarət İdarəsində 9 vakant dövlət qulluğu vəzifəsinin tutulması üçün avqustun 24-də test imtahanı keçirilmişdir. Qeydiyyatdan keçmiş 20 namizəddən 19-u imtahanda iştirak etmiş, 7 nəfər müvafiq keçid balını toplamışdır.

Müəllimlərin dövlət ümumi təhsil müəssisələrinə işə qəbulu üçün cari ilin iyun ayının 30-da elan edilmiş müsabiqənin test imtahanlarına 31 avqustda start verilmişdir. Müsabiqəyə çıxarılmış vakant vəzifələrin tutulması üçün 746 namizəd sənəd təqdim etmişdir. Test imtahanları sentyabr ayının 16-dək davam edəcəkdir.

Komissiya tərəfindən 28 avqustda vakant sektor müdiri vəzifəsinin tutulması üçün 1 nəfərin iştirakı ilə test imtahanı keçirilmişdir.

Ötən ay ərzində dövlət qulluğu, vergi və eləcə də müəllimlərin işə qəbulu sahəsində komissiya tərəfindən təşkil olunmuş hazırlıq kurslarında, ümumilikdə, 153, sınaq imtahanlarında 112 nəfər iştirak etmişdir.

Dövlət orqanlarında vakant dövlət qulluğu vəzifələrinin tutulması üçün keçirilmiş 10 daxili müsahibədə komissiyanın əməkdaşlarının nümayəndə qismində iştirakları təmin olunmuşdur.

Ay ərzində Naxçıvan Muxtar Respublikasının dövlət musiqi təhsili müəssisələrinə işə qəbul və dövlət vergi orqanlarında vakant olan vəzifələrin tutulması üçün elan edilmiş müsabiqələrə sənəd qəbulu davam etdirilmişdir.

Keçirilən bütün tədbir və test imtahanlarında sosial məsafə qorunmuş, tibbi maskalardan istifadəyə və digər sanitar-gigiyenik tələblərə əməl olunmuşdur.

***Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın mətbuat xidməti***



# İqtisadiyyat

## Şəhərimizin simasında yeni naxışlar



*Hər il muxtar respublikamızda aparılan genişmiqyaslı quruculuq işləri çərçivəsində Naxçıvan şəhərinə də böyük pay düşür, estetik zövqə uyğun, özünəməxsus memarlıq üslubunda yeni binalar ucaldılır, mövcudları əsaslı şəkildə təmir olunur, yol infrastrukturu müasir formaya salınır, istirahət məkanları tikilərək insanların istifadəsinə verilir. Dünyada keşməkeşli proseslərin hökm sürdüyü 2020-ci ildə də muxtar respublikamızın bütün bölgələrində, o cümlədən paytaxt şəhərimizdə quruculuq işləri öz əvvəlki ritmi ilə davam edir. Məlumat üçün bildirək ki, cari ilin birinci yarısında Naxçıvan şəhərində 22 müxtəlif təyinatlı obyekt tikilib və ya yenidən qurulub, 46 müxtəlif təyinatlı obyektin tikintisi, yenidən qurulması və ya əsaslı təmiri davam etdirilir.*

Görülən quruculuq tədbirləri sırasında sakinlərin rahatlığına, firavanlığına xidmət edən mənzil-məişət şəraitinin yaxşılaşdırılması xüsusilə ön plana çəkilir, yeni yaşayış binaları inşa olunur, yararsız vəziyyətə düşmüş tikililər təmir-bərpa edilir, mənzillərin sahəsi genişləndirilir, əksəriyyətinin təməli möhkəmləndirilərək əlavə mərtəbələr artırılır, müasir kommunikasiya xətləri ilə təmin olunur.

Cari ildə təmir-bərpası aparılan binaların əksəriyyətində işlər artıq yekunlaşıb, sakinlər rahat mənzillərində firavan həyata qovuşublar. Şəhərimizin bir neçə ünvanında isə yaşayış binalarının təmir-bərpası sürətlə davam etdirilir. “İstiqlal” küçəsindəki 89 nömrəli, zirzəmi ilə birlikdə 5 mərtəbəli, 36 mənzilli binada Naxçıvan



Şəhər Abadlıq və Təmir-Tikinti İdarəsinin inşaatçıları tərəfindən həyata keçirilən təmir-bərpa işlərinə iyul ayının əvvəllərindən başlanılıb. Binanın təməlində betonbərkitmə işləri görülüb, köhnə pəncərələr yenisi ilə əvəz olunub, elektrik və rabitə xətləri dəyişdirilib. Hazırda fasad hissəyə üzləmə daş vurulur, dam örtüyü yenilənir, pilləkənlərə kilid daş düzülür.

“İstiqlal” küçəsinin növbəti quruculuq ünvanı isə 97 nömrəli, 4 mərtəbədən, 36 mənzildən ibarət olan yaşayış binasıdır. Obyektin iş icraçısı Samiq Abdullayevdən aldığımız məlumata görə, iyulun 12-dən başlanan təmir-bərpa işləri tam sürətlə davam edir, əraziyə kifayət qədər işçi qüvvəsi cəlb olunub. İnşaatçılar lazımi mal-material və texniki təhlükəsizlik ləvazimatları ilə təmin ediliblər. Binanın köhnə, yararsız hala düşən üz qabığı, kələ-kötür hissələri çapılaraq hamar hala salınıb, daxildəki kommunikasiya xətləri yenilənir. Hazırda təməldə bərkitmə, betonlama, bloklarda suvaq işləri aparılır.

Paytaxt şəhərimizin Heydər Əliyev prospekti də son illərdə inşa olunan bənzərsiz binaları, kafe və restoranları, alış-veriş məkanları ilə gözoxşayan ünvanlardan birinə çevrilib. 2020-ci ildə görülən irimiqyaslı quruculuq tədbirlərindən bu prospektə də böyük pay düşüb. Belə ki, Naxçıvan Şəhər Abadlıq və Təmir-Tikinti İdarəsinin inşaatçıları buradakı 40 nömrəli, 3 mərtəbəli, 22 mənzilli yaşayış binasında iyun ayının axırlarından etibarən təmir-bərpa işləri həyata keçirirlər. Obyektin iş icraçısı Şöhrət Qoçəliyevin verdiyi məlumata əsasən binanın ön fasadına üzləmə daş vurulub, arxa tərəfindəki artırma eyvanlar sökülür. Həmçinin elektrik və su xətləri yenilənib, dam örtüyü vurulur.

Qeyd edək ki, muxtar respublikamızda əhalinin firavanlığına xidmət edən mənzil-məişət şəraitinin yaxşılaşdırılması sahəsində həyata keçirilən tədbirlər çoxşaxəlidir. Qayğıya ehtiyacı olan vətəndaşların mənzil və fərdi yaşayış evləri ilə təmin olunması, mövcud yaşayış binalarının əsaslı şəkildə bərpa edilərək və ya yenidən qurularaq sakinlərin istifadəsinə verilməsi, qəzalı vəziyyətdə olan yaşayış binalarının sökülərək yerində yenilərinin tikilməsi diyarımızda insan amilinə verilən böyük önəmin təzahürüdür.

**Nail ƏSGƏROV**

## Operativ vergi nəzarəti tədbirləri davam etdirilir

*Naxçıvan Muxtar Respublikası Dövlət Vergi Xidməti və onun yerli vergi orqanları tərəfindən muxtar respublika ərazisində fəaliyyət göstərən ticarət, iaşə, xidmət və digər sahələrdə yoxlama və monitorinqlər avqust ayında da davam etdirilib, 28 vergiödəyicisində qanunvericiliyin pozulması faktları aşkar olunub.*

Operativ vergi nəzarəti tədbirləri zamanı 27 vergiödəyicisinin “Fərqlənmə nişanı” olmadan avtomobil nəqliyyatı ilə sərnişin daşınması, 1 şəxsin isə “Sadələşdirilmiş vergi üzrə sabit məbləğin və məcburi dövlət sosial sığortahaqqının ödənilməsi haqqında qəbz” almadan fəaliyyət göstərməsi aşkarlanıb və həmin şəxslər barəsində qanunamüvafiq tədbirlər görülüb. Həmçinin vergidənyayınma və dövriyyənin gizlədilməsi hallarına qarşı mübarizə məqsədilə 1 vergiödəyicisində xronometraj metodu ilə müşahidə aparılıb.

Qeyd olunan dövrdə müvafiq icra hakimiyyəti orqanları ilə birgə 7 işəgötürəndə aparılmış araşdırmalar zamanı 18 yeni əmək müqaviləsinin bağlanmasına nail olunub.

***Naxçıvan Muxtar Respublikası Dövlət Vergi Xidmətinin mətbuat xidməti***

## Ailə təsərrüfatlarının inkişafı əhalinin rifah səviyyəsinin yüksəlməsinə öz töhfəsini verir

***Muxtar respublika iqtisadiyyatında aqrar bölmənin aparıcı qüvvələrindən biri ailə təsərrüfatlarıdır. Bu gün muxtar respublikanın ərzaq təhlükəsizliyinin təmini, ixracyönümlü və yüksək rəqabətqabiliyyətli məhsul istehsalı aqrar sahədə fəaliyyət göstərən ailə təsərrüfatlarının formalaşmasına şərait yaratmışdır.***





Son illər Naxçıvanda ailə təsərrüfatlarının inkişafı istiqamətində ardıcıl tədbirlər görülür. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2017-ci il 22 noyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş “Naxçıvan Muxtar Respublikasında ailə təsərrüfatlarının inkişafı ilə bağlı Tədbirlər Planı”nın icrası bu baxımdan mühüm əhəmiyyətə malik olmuş, 2018-ci ildə muxtar respublikada 319 ixtisaslaşmış ailə təsərrüfatı yaradılmış, 253 min manatdan çox dövlət maliyyə dəstəyi göstərilmişdir.

Muxtar respublikada ailə təsərrüfatlarının sahələr üzrə ixtisaslaşması və yeni belə təsərrüfatların yaradılmasının dəstəklənməsi, onların fəaliyyətinin stimullaşdırılması, qabaqcıl ailə təsərrüfatlarının təcrübələrinin yayılması üçün məqsədyönlü tədbirlər, festivallar keçirilmişdir. Ali Məclis Sədrinin 2019-cu il 18 yanvar tarixli Sərəncamı ilə təsdiq olunmuş “Naxçıvan Muxtar Respublikasında ailə təsərrüfatlarının inkişafı ilə bağlı Tədbirlər Planı” bu baxımdan mühüm əhəmiyyətə malik olmuş, belə təsərrüfatlara geniş fəaliyyət imkanları açmışdır.

Bu istiqamətdə ötən il Sahibkarlığın İnkişafı Fondu tərəfindən 87 ailə təsərrüfatına 820 min manata yaxın dövlət maliyyə dəstəyi göstərilmiş, 315-i 12 min 800-dən çox tara ilə təmin olunmuş, belə təsərrüfatların biznes planlarının tərtib olunmasına köməklik göstərilmiş, təsərrüfatlara müxtəlif təyinatlı kənd təsərrüfatı texnikaları və gübrələr verilmişdir.

Aqrar sektorda tətbiq edilən güzəştlər və subsidiyalar ailə təsərrüfatlarının inkişafını stimullaşdırmış, onların fəaliyyət sahələrini genişləndirməyə şərait yaratmışdır. Bu istiqamətdə cari ilin səkkiz ayı ərzində işlər davam etdirilmiş, Sahibkarlığın İnkişafı Fondu tərəfindən istixana, soyuducu anbar, heyvandarlıq və süd emalı, arıçılıq təsərrüfatları, meyvə-tərəvəz məhsullarının konservləşdirilməsi və qablaşdırılması, bağçılıq sahəsinin yaradılması məqsədilə 30 ailə təsərrüfatına 306 min manatdan çox dövlət maliyyə dəstəyi göstərilmiş, 300-ə yaxını isə 4 min 700-dən çox tara ilə təmin olunmuşdur. Bu isə, öz növbəsində, təsərrüfatların fəaliyyətlərinin genişləndirilməsinə, bir hissəsinin isə kiçik sahibkarlıq subyektinə çevrilməsinə təkan vermişdir.

Ailə təsərrüfatlarının, əsasən, istehsalyönümlü iqtisadi fəaliyyət sahələrini əhatə edərək, muxtar respublikada daxili bazarın da keyfiyyətli və ekoloji cəhətdən təmiz kənd təsərrüfatı məhsulları ilə təminatında və bu istiqamətdə idxaldan asılılığın azaldılmasında, eləcə də kənd yerlərində məşğulluğun təmin olunmasında müstəsna rolu var. Digər tərəfdən aparılan məqsədyönlü tədbirlər nəticəsində muxtar respublikada ailə təsərrüfatlarının sayının getdikcə çoxalması əmək resurslarının səmərəli məşğulluq imkanlarını artırmaqla yanaşı, iqtisadiyyatda mühüm faktorlardan olan ailə biznesinin genişlənməsinə, kiçik və orta sahibkarlığın inkişafına əlavə imkanlar yaradır.

Hazırladıqları məhsulları özlərinə məxsus brend adı altında satışa çıxarmaları ailə təsərrüfatlarını işlərini inkişaf etdirməyə, bazara yeni məhsullar təqdim etməyə daha da həvəsləndirir. Ailə təsərrüfatlarında istehsal olunan məhsulların tanıdılması, təşviqi və sərgisi məqsədilə “Naxçıvan Biznes Mərkəzi” Məhdud Məsuliyyətli Cəmiyyətinin sərgi salonunda ailə təsərrüfatlarının 118 çeşiddən çox məhsulunun nümayişi təmin olunmuşdur. Bu sahədə həyata keçirilən tədbirlərin davamı olaraq şəhər və rayonlarımızda fəaliyyət göstərən ticarət obyektlərində ailə təsərrüfatı məhsulları guşələrinin yaradılması muxtar respublikada belə məhsulların çeşid və rəqabətqabiliyyətliliyinin stimullaşdırılmasında, istehlakçıların ekoloji təmiz ərzaq məhsulları ilə təmin edilməsində mühüm rol oynamışdır.

İstehsalın mühüm şərtlərindən biri keyfiyyət amilidir. Bu istiqamətdə ötən dövr ərzində Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin nəzdində fəaliyyət göstərən “İstehlak Mallarının Ekspertizası Mərkəzi” Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən ailə təsərrüfatlarının istehsal etdikləri məhsulların keyfiyyətinə nəzarət etmək məqsədilə belə təsərrüfatlarda hazırlanan məhsullardan orta nümunələr götürülərək Mərkəzi Qida Sınaq Laboratoriyasında keyfiyyət və təhlükəsizlik göstəricilərindən olan orqanoleptiki, fiziki, kimyəvi, toksikoloji və mikrobioloji göstəricilər üzrə laboratoriya təhlilləri aparılmışdır. Nəticədə, 418 halda məhsullardan laboratoriya analizləri götürülmüş, nümunələrin keyfiyyət və təhlükəsizlik göstəricilərinin qüvvədə olan normativ-texniki sənədlərin tələblərinə cavab verdiyi müəyyən edilmişdir.

Türkiyə Respublikasında keçirilən kənd təsərrüfatı və heyvandarlıq üzrə avadanlıqların virtual sərgisində muxtar respublikanın qabaqcıl ailə təsərrüfatçılarından olan Mehparə Hüseynovanın iştirakının təmin olunması xarici təcrübənin öyrənilməsində və yeni tərəfdaşların tapılmasında mühüm rol oynamışdır.

Muxtar respublikada fermerlərin müasir biliklərə yiyələnməsi, təsərrüfatlarda innovativ metod və texnologiyaların tətbiqi, ərzaq və qida təhlükəsizliyinin təmini, kənd təsərrüfatı məhsulları istehsalçılarının maliyyə resurslarına çıxışının asanlaşdırılması, aqrar sahənin risklərdən sığortalanması, kənd əhalisinin məşğulluğunun artırılması istiqamətində həyata keçirilən tədbirlər davam etdiriləcək. Heç şübhəsiz ki, görülən işlər ailə təsərrüfatlarının gələcəkdə kiçik və orta sahibkarlıq subyektlərinə çevrilməsinə öz töhfəsini verəcəkdir.

***Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin mətbuat xidməti***

## Payızlıq taxıl şumu işləri sürətləndirilib



***Kəngərli rayonunda fermerlər son illər taxılçılığın inkişafına böyük maraq göstərirlər. Cari ildə rayonun torpaq mülkiyyətçiləri 5 min 906 hektar sahədən 17 min 707 ton taxıl tədarük ediblər. Taxıl zəmilərindən orta hesabla 30 sentner məhsul götürülüb. Bu isə ötən ildəkindən çoxdur.***

Rayonda payızlıq taxıl əkini kampaniyasına ciddi hazırlıq işləri görülür. Artıq bir neçə gündür, torpaq mülkiyyətçiləri taxıl əkiləcək sahələrdə payızlıq şuma başlayıblar. Bu işə həlelik “Naxçıvan Aqroservis” Açıq Səhmdar Cəmiyyəti Kəngərli rayon bazasının, eyni zamanda fiziki və hüquqi şəxslərə məxsus müxtəlif markalı 12 şum texnikası cəlb edilib. Texnika və şum aqreqatları vaxtında təmir olunduqdan, yoxlamadan keçirildikdən və iş üçün tam hazır vəziyyətə gətirildikdən sonra sahələrə çıxarılıb.

Hazırda sahələrdən şum edən texnikaların səsi gəlir. Bu günə kimi 1600 hektar sahədə şum qaldırılıb. Taxıl əkinində ilkin və həlledici amil sayılan payızlıq şumdan əvvəl sahələr bitki qalıqlarından təmizlənir, üzvi və mineral gübrələrlə zənginləşdirilir. Şumun lazımi dərinlikdə aparılması da həm mütəxəssislərin, həm də torpaq mülkiyyətçilərinin diqqətindədir. Bu mühüm kampaniyada iştirak edən texnikaların yanacaqla vaxtlı-vaxtında təmin olunması, sıradan çıxmış hissələrinin təcili dəyişdirilməsi üçün əvvəlcədən kifayət qədər ehtiyat yaradılıbdır.

Qeyd edək ki, şum qaldırılmasında Böyükdüz və Xok kəndlərinin taxılçıları irəlidə gedirlər.

**Babək İSMAYILOV**

## Gənc müəllimlər ümumtəhsil məktəblərində işlə təmin olunmuşlar



Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya tərəfindən muxtar respublikanın dövlət ümumi təhsil müəssisələrinə alman dili müəllimliyi və digər vakant vəzifələrə işə qəbul üçün 18 mart 2020-ci il tarixdə elan edilmiş müsabiqənin 8-18 iyun tarixlərdə keçirilmiş test imtahanlarının nəticəsinə uyğun olaraq 5-i alman dili müəllimliyi, 55-i isə digər vakant vəzifələrə uyğun olmaqla, 60 nəfər işə qəbul olmuşdur.

Dünən imtahanlarda müvafiq keçid balını toplayaraq ümumi təhsil müəssisələrinə vakant vəzifələrə işə qəbul edilən gənc kadrlarla görüş keçirilib. Tədbiri giriş sözü ilə açan Naxçıvan Muxtar Respublikasının Təhsil naziri Rəhman Məmmədov bildirib ki, əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan dövlət gənclər siyasəti muxtar respublikada da uğurla davam etdirilir. Ali Məclis Sədrinin diqqət və qayğısı sayəsində gənclərin yaxşı təhsil alması, onların sağlam, vətənpərvərlik ruhunda yetişmələri üçün zəruri şərait yaradılır.

Nazir bildirib ki, bu gün muxtar respublikada gənclərə göstərilən yüksək qayğılardan biri də pedaqoji profilli ixtisasları bitirmiş gənclərin işlə təmin olunmasıdır. Təhsil müəssisələrinin bacarıqlı və bilikli müəllimlərlə təmin edilməsinə isə xüsusilə diqqət yetirilir. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2018-ci il 14 aprel tarixli Qərarı ilə təsdiq olunmuş "Naxçıvan Muxtar Respublikasında müəllimlərin dövlət ümumi təhsil və ilk peşə ixtisas təhsili müəssisələrinə işə qəbulu, bilik və bacarıqlarının qiymətləndirilməsinin aparılması Qaydaları"na uyğun olaraq Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya tərəfindən müvafiq müsabiqələr keçirilir. Bu isə səriştəli, bacarıqlı kadrların məktəbə gəlməsinə, müəllimlərin ehtiyac olan təhsil müəssisələrində yerləşdirilməsinə gətirib çıxarır.

Vurğulanıb ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin tapşırıqlarına əsasən muxtar respublikanın ümumtəhsil məktəblərində xarici dil olaraq alman dilinin tədrisi mümkün olan məktəblərdə dərs yükü araşdırılıb, ümumilikdə, Alman dili ixtisası üzrə 20, müxtəlif vəzifələr üzrə 120 vakant vəzifə müsabiqəyə çıxarılıb. Nəticələrə görə, 5 nəfər alman dili müəllimliyi üzrə, 55 nəfər isə müxtəlif vəzifələr üzrə işə qəbul olunub.

Nazir qeyd edib ki, dünyanın müxtəlif dillərindən istifadə olunması həyati zərurətə çevrilmişdir. Belə bir zərurət isə təhsil müəssisələrinin, ilk növbədə, ümumtəhsil məktəblərinin üzərinə ciddi vəzifələr qoyur. İkinci xarici dil fənninin "Ümumi təhsil pilləsinin dövlət standartları və proqramları (kurikulumları)" sənədinə uyğun olaraq hazırlanmış tədris planına salınması da məhz bu vəzifədən irəli gəlir.

Sonra Təhsil naziri yeni fəaliyyətə başlayan gənc kadrları təbrik edib, onlara yeni vəzifələrində uğurlar arzulayıb.

Təhsil nazirinin müavini Heyran Əhmədova yeni işə təyin olunan kadrlara əmək funksiyaları ilə bağlı hər bir vəzifə haqqında ümumi məlumat verib. Qeyd edilib ki, 2019-2020-ci tədris ilində savadlı gənclərin işlə təmin olunması istiqamətində ciddi addımlar atılıb və ümumtəhsil müəssisələrində yaranan boş yerlər vakant olaraq müsabiqəyə çıxarılıb. Dövlət Qulluğu Məsələləri üzrə Komissiya tərəfindən keçirilən müsabiqədə ən yüksək nəticə göstərən kadrlar yeni tədris ilindən fəaliyyətə başlayacaqlar.

Sonra çıxış edən Röya Məhərrəmova həyata keçirilən təhsil siyasətinə və gənclərə göstərilən yüksək qayğıya görə gənc müəllimlər adından Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə minnətdarlığını bildirib.

Tədbirdə yeni işə təyin edilən gənc kadrlara Təhsil Nazirliyi tərəfindən təlimat materialları verilib.

Gənc kadrlarla görüşdən sonra onlara ümumtəhsil müəssisələrində üzərlərinə düşən vəzifələrlə bağlı seminar keçirilib.

***Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidməti***

## Jurnalın növbəti sayı işıq üzü görüb

AMEA Naxçıvan Bölməsinin İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun təsis etdiyi "Axtarışlar" jurnalının növbəti sayı çap olunub. Topluda ədəbiyyatşünaslıq, folklor, dilçilik və sənətşünaslıq sahələrində müxtəlif səpkili mövzularda aparılan tədqiqatlar, elmi araşdırmalar yer alıb.




Yeni sayda "Naxçıvanda humanitar elmlərin inkişafı məsələləri", "Arzu-Qəmbər" dastanının struktur təhlili (Dobruca türklərinin epik folklor materialları əsasında)", "Azərbaycan xalq bayramlarının etnokulturoloji semantikasının nəzəri əsasları", "Aza qədim türk tanrı mifinin Naxçıvan ərazisi toponimlərində izləri", "İbrahim Səfiyevin yaradıcılığında mövzu və janr müxtəlifliyi" və digər məqalələr dərc olunub. Həmçinin jurnalın "Biblioqrafiya" bölməsində İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun Dilçilik şöbəsinin müdiri, filologiya üzrə fəlsəfə doktoru, dosent Nuray Əliyevanın görkəmli dilçi alim, türkoloq, AMEA-nın müxbir üzvü Əbülfəz Quliyevin 70 illiyinə həsr olunan "Fədakar alim ömrü" adlı məqaləsi əksini tapıb.

***AMEA Naxçıvan Bölməsinin mətbuat xidməti***

*Dövlət proqramı icra olunur*

## Naxçıvanda xalça sənəti yeni inkişaf dövrünü yaşayır



*Muxtar respublikamızda xalçaçılıq ənənəvi xalq yaradıcılığının ən qədim və geniş yayılmış növlərindən biridir. Tarixboyu Naxçıvan xalçaçılıq məktəbinin nümunələri özünəməxsus ornamentləri ilə fərqlənmişdir. Müxtəlif yazılı mənbələrin məlumat obyektinə çevrilmiş Naxçıvan xalçaları xalqın maddi-mədəni irsinin formalaşmasında mühüm rol oynamışdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov demişdir:* ***"Xalça toxumaq sənəti tarixən Azərbaycanda, o cümlədən Naxçıvanda aparıcı peşə sahələrindən biri olmuşdur. Təbiəti, ictimai və mədəni inkişaf səviyyəsi, həyat və məişət şəraiti Naxçıvanda xalçaçılığı hələ uzaq keçmişlərdə sənətkarlığın mühüm sahələrindən birinə çevirmişdir. Bu ərazidə istehsal edilən iriölçülü, qalın toxunuşa malik xovlu və xovsuz xalçalardan məişətdə geniş istifadə edilmişdir. Arxeoloji qazıntılar zamanı əldə olunmuş ibtidai gil cəhrələr və sümükdən hazırlanmış iy ucları Naxçıvanın qədim toxuculuq mərkəzlərindən biri olduğunu təsdiq edir".***

Muxtar respublikamızda xalqın yaradıcı təfəkkürünün məhsulu olan nümunələrin qorunması ilə bağlı tədbirlər davam etdirilir. Bu tədbirlərin bir hissəsini də xalçaçılıq sahəsində mövcud ənənələrin mühafizəsi və inkişaf etdirilməsi təşkil edir. Görülən işlərin sistemli şəkildə davam etdirilməsində Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2018-ci il 9 aprel tarixli Sərəncamı ilə təsdiq olunmuş "Naxçıvan Muxtar Respublikasında xalça





sənətinin qorunmasına və inkişaf etdirilməsinə dair 2018-2022-ci illər üçün Dövlət Proqramı" xüsusi yer tutur. Proqramda nəzərdə tutulan tapşırıqların icrası cari ilin aprel-iyun aylarında da diqqətdə saxlanılmışdır. Belə ki, ikinci rübdə "Naxçıvan Biznes Mərkəzi" Məhdud Məsuliyyətli Cəmiyyətinin Xalq Yaradıcılığı Emalatxanasında 6 xalça toxunmuş, 3 xalçanın, həmçinin Cəlilkənd buzxanasında 1 xalçanın toxunuşu davam etdirilmişdir.

Dövlət proqramının icrası istiqamətində əvvəlki illərdə yaradılmış əllə toxunmuş xalçaların reyestri sistemi bu sahədə mövcud nümunələrin qorunması və gələcək nəsillərə ötürülməsində əvəzsiz rola malikdir. İkinci rübdə sistemə daxil edilmək üçün 12 xalçanın pasportlaşdırılması həyata keçirilmişdir.

Xalq yaradıcılığının müxtəlif sahələrinin mükəmməl qaydada öyrənilməsinin təmin edilməsi üçün elmi araşdırmaların aparılması xüsusi önəm kəsb edir. Çünki tədqiqat işləri nəticəsində əldə edilən yeni məlumatlar müxtəlif elmi nəşrlərin hazırlanmasında əsas rolda çıxış edir. Eyni zamanda müəyyən edilmiş faktlar unudulmaqda olan ənənələrin də bərpasına səbəb olur. Dövlət proqramında da Naxçıvan xalçaçılıq məktəbinin elmi cəhətdən və sistemli araşdırılması ilə bağlı tapşırıq nəzərdə tutulmuşdur. İkinci rübdə Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin təsdiq olunmuş elmi-tədqiqat planına əsasən Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunda "Naxçıvanda xalçaçılığın inkişaf tarixi" mərhələsi üzrə tədqiqatlar aparılmışdır. Tədqiqatlara dair açıq dünya ensiklopediyası olan Vikipediyada toxuculuq sənəti haqqında məqalə yerləşdirilmişdir. Eyni zamanda müxtəlif internet portallarında "Naxçıvan memarlıq abidələri və xalça nümunələri üzərindəki ornamentlərin oxşarlığı" və "Naxçıvan xalçalarında Əcəmi möhürü" başlıqlı məqalələr yayımlanmışdır.

Muxtar respublikamızda əllə xalçatoxuma sahəsinin genişləndirilməsi xüsusi əhəmiyyət verilir. Bu istiqamətdə peşə təhsilinin də təşkili xalçaçılıq üzrə mütəxəssislərin sayının artmasına imkan yaradır. Proqramın icrasına uyğun olaraq Ordubad Texniki Peşə və Sürücülük Məktəbində 4 dekabr 2019-cu il tarixdən xalçaçı kursu fəaliyyətə başlamışdır. 12 müdavim cari ilin iyun ayında kursu başa vuraraq sertifikatla təmin olunmuşdur.

*Xalçaçılıq sahəsində məşğulluğun təmin edilməsi üçün yeni infrastrukturun yaradılması mühüm əhəmiyyət kəsb edir. İkinci rübdə Dövlət proqramında nəzərdə tutulmuş tapşırıqların icrası məqsədilə Naxçıvan şəhərində xalça istehsalı emalatxanasının, eləcə də yun və boyaq bitkilərinin tədarükü məntəqəsinin yaradılması davam etdirilmişdir. Dövlət proqramının icrası Naxçıvan xalçaçılıq məktəbinin yaşadılması üçün yeni imkanlar yaradacaqdır.*

**"Şərq qapısı"**

***Bu gün ulu öndərimizin siyasi xəttinin uğurla davam etdirildiyi muxtar respublikamızda təhsilin inkişafı əsas prioritet istiqamətlərdəndir. Diyarımızda təhsil quruculuğu sahəsində görülən işlər nəticəsində müasir təhsil infrastrukturu yaradılıb, yüksəkixtisaslı kadr hazırlığı işi yeni yanaşmanı əhatə edib. Dövrün tələbləri ilə uzlaşan təhsil islahatlarının həyata keçirildiyi muxtar respublikamızda bu sahəyə göstərilən dövlət qayğısının nəticəsidir ki, diyarımızın istedadlı gəncləri hər il ali məktəblərə qəbul imtahanlarında yüksək bal toplayırlar.***

*Gəncliyimiz, gələcəyimiz*

## Məqsəd müvəffəqiyyətə aparacaq yolun ən önəmli addımıdır

Ali məktəblərə qəbul imtahanlarında yüksək bal toplayan abituriyentlər sırasında tələbə adını qazanan ***İnci Şirinova*** da var. O, 590 bal toplayaraq müəllimlərinin etimadını doğruldub. Tələbə olmaq sevincini yaşayan İnci ilə redaksiyamızda həmsöhbət olduq. O bildirdi ki, sevincinin həddi-hüdudu yoxdur. Bu sevincə orta təhsil aldığı Naxçıvan şəhərindəki Qızlar Liseyinin kollektivi, valideynləri, qohum-əqrəbası da qoşulub: Onlara bu sevinci yaşadacağıma əmin idim. Bu əminliyi məndə liseyimizin müəllimləri, buradakı şərait yaratmışdı.



Geniş sinif otaqları, zəngin laboratoriyalar və kitabxana, idman zalı hər bir şagirdə yaxşı təhsil almağa imkan verib. Bütün bunlar dövlətimizin ölkəmizdə, muxtar respublikamızda təhsilin inkişafına göstərdiyi qayğının ifadəsidir. İlboyu məktəbdə dərs məşğələləri ilə yanaşı, dərsdənkənar hazırlıqların, tarixi və əlamətdar günlərlə bağlı keçirilən tədbirlərin, bilik yarışlarının, viktorinaların, test-sınaq imtahanlarının, oxunması zəruri olan kitabların müzakirələrinin şagirdlərin elmlərin sirlərinə yaxından yiyələnmələrində böyük rolu da danılmazdır. Liseyi yüksək qiymətlərlə başa vurmağımız və ali məktəblərə qəbul olunmağımız üçün müəllimlərimizin çəkdiyi zəhməti isə heç vaxt unutmaq olmaz. Artıq həyəcanlı günlərimiz arxada qalıb. Qəbul imtahanları başa çatıb. Mən III qrup üzrə biliyimi sınayaraq 590 bal topladım. Bu yüksək nəticəyə nail olmağımda müəllimlərimin əməyini xüsusi qeyd etməklə liseyimizin pedaqoji kollektivinə valideynlərim, həmçinin tələbə adını qazanmış məzun yoldaşlarım adından minnətdarlığımı bildirirəm. Bütün gənclərə arzum odur ki, muxtar respublikamızda yaxşı təhsil almaq üçün yaradılan şəraitdən lazımınca istifadə etsinlər. Bu halda tələbə olmaq arzusuna çatmaq heç də çətin deyil.

Builki qəbul imtahanlarında uğurlu nəticə göstərənlərdən biri də ***Ruzi Novruzlu***dur. Naxçıvan şəhərindəki 17 nömrəli tam orta məktəbin məzunu olan Ruzi III qrupa qəbul imtahanında 550 bal toplayaraq valideyn və müəllimlərini sevindirib. O, ədəbiyyat və tarix kimi humanitar fənlərə böyük maraqgöstərən gəncdir. Məhz elə bu marağın nəticəsidir ki, muxtar respublikada təşkil edilən tarix fənni üzrə olimpiadalarda, məktəblilər arasında keçirilən bilik yarışlarında iştirak edərək bir sıra nailiyyətlər əldə edib. Təhsil aldığı məktəbdə fəallığı və istedadı ilə seçilən Ruzi, həm də sınaq imtahanlarında, xüsusilə pandemiya dövründə təşkil edilən onlayn imtahanlarda da yüksək nəticələr göstərib. Ruzi məktəbdə qazandığı təhsildən əlavə boş vaxtlarını idmanla məşğul olmaqla və mütaliə ilə keçirir. Valideynlərinin onun həmişə böyük dəstəkçisi olduğunu deyən Ruzi müəllimlərinin də əməyini unutmur, onun üzərində çəkdikləri əziyyətə görə onlara minnətdarlıq edir. O, ali təhsilini Naxçıvanda davam etdirmək istəyir. Ali məktəblərə ixtisas seçimində Naxçıvan Dövlət Universitetinin Hüquqşünaslıq ixtisasını seçmək niyyətində olan müsahibim bunu belə əsaslandırır: – Hüquqa və sosial araşdırmaya marağım məktəb vaxtlarından yaranıb. Çox geniş fəaliyyət sahəsi olduğuna görə bu sahədə çalışanlar hüquq müdafiəçisi kimi vəzifəsindən asılı olmayaraq, fiziki və hüquqi şəxslərin hüquq və mənafelərini qorumalı, onların müdafiəçisinə çevrilməli, öz işini vicdanlı, ədalətli şəkildə yerinə yetirməlidir. Mən böyük məsuliyyət tələb edən bu işin öhdəsindən gələcəyimə inanıram.



Müsahiblərimizin özününamı və çalışqanlığı onu deməyə əsas verir ki, onlar istər tələbəlik illərində, istərsə də sonrakı həyatlarında daha böyük uğurlar qazanacaq və parlaq gələcəyi yaratmağa qadir gənclərimizdən olacaqlar.

**Güntac ŞAHMƏMMƏDLİ**
**Türkan HÜSEYNLİ**

## Biliksevərlərin doğma alış-veriş məkanı (reportaj)

***Həftənin bazar – hamının təbirincə desək, istirahət günü Naxçıvan şəhərindəki Mərkəzi bazara yollandım. Bu həmin bazardır ki, diyarımızın sakinlərini muxtar respublikamızda istehsal olunan yerli kənd təsərrüfatı məhsulları ilə təmin edir. Lakin bu dəfə buraya kənd təsərrüfatı məhsullarının satış yarmarkasından, ya da bayram yarmarkasından yazı hazırlamaq üçün yox, yeni tədris ili ərəfəsində təşkil edilən ənənəvi məktəbli yarmarkası ilə tanış olmağa gəlmişəm.***

Bazara addım atar-atmaz övladına məktəb ləvazimatları almağa tələsən valideynlərin, məktəbə gedəcəkləri üçün sevinən uşaqların həyəcanını görürəm. Bu məni də şirin xatirələrlə dolu qayğısız məktəb illərinə aparır, bu kövrək hissləri məndə yaşadan yarmarka ilə tanış olmağa tələsirəm.





İlk olaraq “Məktəbli yarmarkasına xoş gəlmisiniz” yazısı ilə qarşılaşıram. Yarmarkanın giriş hissəsində məktəbli ləvazimatlarının satış qiymətləri ilə tanışlıqdan sonra içəriyə daxil oluram. Burada, xüsusilə ibtidai siniflərdə təhsil alan övladları ilə birgə alış-veriş edən valideynləri, onlara lazım olan tədris vəsaitlərinə, elmi nəşrlərə nəzər yetirən müəllimləri, eləcə də artıq özü bazarlıq etməyi bacaran şagirdləri dəftər, qələm, çanta və digər ləvazimat alan görürəm.

Satıcı Elcan Abbasov övladları üçün dəftər, qələm, rəngli kağız almaq istəyən valideyn Sevda Yusifovaya keyfiyyətli dəftərxana ləvazimatları seçməkdə köməklik göstərir. Sevda xanım yarmarka təşkilatçılarına minnətdarlıq hissi ilə bildirir ki, hər il Naxçıvan şəhərində, rayonlarımızda keçirilən bu ənənəvi məktəbli yarmarkalarında məktəbli övladlarımız üçün lazım olan dərs ləvazimatları, məktəbli və idman forması, çanta, ayaqqabı və başqa əşyaları münasib qiymətə ala bilirik. Mən bu gün VI sinifdə oxuyan qızım, IV sinifdə təhsil alan oğlum üçün rəsm dəftəri, qələm və digər dərs ləvazimatları almışam. Uşaqlar yaxın vaxtlarda uzun fasilədən sonra yenidən məktəbə gedəcəkləri üçün çox sevinirlər, onları da gətirmişəm ki, özləri seçim etsinlər, hər şey ürəklərincə olsun.

Digər bir valideyn Samir Məmmədov isə deyir ki, yarmarkadan övladlarım üçün məktəbli dəsti almışam. Yeni tədris ilinin başlanmasına sayılı günlər qalır. Bir valideyn kimi biz də övladlarımız qədər sevinirik. Çünki təhsil həyatımızda mühüm rol oynayır. İnsan yalnız öz elmi, təhsili, dünyagörüşü ilə başqalarından fərqlənə, gələcəyini düzgün qura bilər. Bu gün muxtar respublikada təhsil müəssisələrinin fəaliyyətinə göstərilən diqqət, qayğı da buna hərtərəfli imkan verir. Mən övladlarıma da deyirəm, biz valideynlər yalnız onlar üçün çalışır, yaşayırıq. Yeganə istəyimiz isə övladlarımızın təhsilli, savadlı olmaları və gələcəkdə xalqına, dövlətinə layiqincə xidmət etmələridir.

Satıcılarla həmsöhbət oluruq. Onların dediklərindən: – Həftənin şənbə və bazar günləri alıcı sayında çoxluq müşahidə edirik. Məktəblilər həvəsləndirici, rəngarəng görünüşü ilə diqqətçəkən ləvazimatlara, qələm və çanta almağa üstünlük verirlər. Yaradılan şərait imkan verir ki, muxtar respublikanın bütün rayon və kəndlərində şagirdlər vahid geyim formasından istifadə etsinlər. Əsas olan isə məktəbdə qazanılan bilik və savaddır.

Yarmarkada yeni tədris ili üçün bazarlıq edən təkcə valideynlər deyildi. Müəllimlər də özlərinə lazım olan ləvazimatları almaq üçün məktəbli yarmarkasına üstünlük verirlər. Naxçıvan şəhərindəki 4 nömrəli tam orta məktəbin ibtidai sinif müəllimi Xəyalə İsmayılova ilə həmsöhbət oluruq. O qeyd edir ki, muxtar respublikamızda bütün sahələr kimi, təhsilimiz də hərtərəfli dövlət qayğısı ilə əhatə olunub. Növbəti məktəbli yarmarkası da bunun bir nümunəsidir. Burada valideynlərimiz övladları üçün keyfiyyətli, qiyməti isə münasib məktəb ləvazimatları ala bilirlər. Belə yarmarkalar yeni tədris ili ərəfəsində məktəbli geyimlərinə və dərs ləvazimatlarına olan tələbatın daha asan şəkildə təmin edilməsində mühüm rol oynayır. Mən də bir müəllim kimi bu yarmarkadan lazımi vəsaitləri tapıb ala bilirəm.

Naxçıvan şəhərindəki 12 nömrəli tam orta məktəbin ingilis dili müəllimi Anar Yaqubov isə bildirir ki, hər il ənənəvi olaraq keçirilən yarmarkada iştirak edirəm. Həm məktəbli övladlarıma, həm də özümə lazım olan vəsaitləri alarkən seçim etmək imkanımızın olması sevindiricidir.

*Həmsöhbət olduğumuz sakinlərin razılıq etdikləri məktəbli yarmarkasından siz də yararlana, keyfiyyətli, satış qiyməti isə əlverişli olan ləvazimatları ala bilərsiniz. Qeyd edək ki, belə yarmarkalar muxtar respublikanın bütün rayonlarında təşkil olunur və sentyabrın 14-dək davam edəcək.*

**✍ Güntac ŞAHMƏMMƏDLİ**

## Tədbirlər onlayn formada davam etdirilir

*Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin tabeliyindəki müəssisələr tərəfindən avqust ayında da tədbirlər onlayn şəkildə davam etdirilmişdir.*



Naxçıvan Dövlət Filarmoniyasının Mahnı və Rəqs Ansamblının və “Muğam studiyası”nın konsertləri, Məhəmməd Tağı Sidqi adına Naxçıvan Dövlət Kukla Teatrının “Keçinin qisası” tamaşası onlayn təqdim olunmuş, Cəlil Məmmədquluzadə adına Naxçıvan Muxtar Respublika Ədəbiyyat Muzeyinə və Naxçıvan Dövlət Rəsm Qalereyasına onlayn ekskursiyalar təşkil edilmişdir. Tədbirlər Naxçıvan Dövlət Televiziyasında və onun internet resurslarında, Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin rəsmi internet saytında və sosial şəbəkə hesablarında canlı olaraq yayımlanmış, tamaşaçılar tərəfindən maraqla qarşılanmışdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Şərur yallıları haqqında” 2018-ci il 24 dekabr tarixli Sərəncamının icrası ilə əlaqədar yallıların çəkilişi aparılmış, yallı sənətinin təbliği ilə əlaqədar sosial şəbəkələrdə paylaşımlar edilmişdir. Yallı sənətinin yaşadılması işinə töhfə ola biləcək “Yallılar dünəndən bu günə” kitabı və DVD diski üzərində iş yekunlaşmışdır.

“Naxçıvan Muxtar Respublikasında xalça sənətinin qorunmasına və inkişaf etdirilməsinə dair 2018-2022-ci illər üçün Dövlət Proqramı”nın icrası ilə bağlı yaradılmış “Əllə toxunmuş xalçaların reyestri sistemi”nə daxil edilməsi üçün avqust ayında 2 yeni xalça pasportlaşdırılmış, reyestrə 50 xalça haqqında məlumat daxil edilmişdir. Həmçinin nazirliyin sosial şəbəkə hesabında “Əllə toxunmuş xalçaların reyestri sistemi”nə daxil olan 89 xalça haqqında məlumat paylaşılmışdır.

Hesabat ayı ərzində, ümumilikdə, muzeylər tərəfindən 516 sayda müxtəlif məlumat, audio və videomaterial hazırlanmış və sosial şəbəkələrdə paylaşılmış, onlardan 129-u onlayn ekskursiya xarakterli olmuşdur. Ötən ay muzeyləri 2 min 432 yerli, 398 əcnəbi olmaqla, ümumilikdə, 2 min 830 tamaşaçı ziyarət etmiş, ay ərzində muzeylərə 76 yeni eksponat daxil olmuşdur.

Muxtar respublikada fəaliyyət göstərən kitabxanalar da avqust ayında onlayn fəaliyyətlərini davam etdirmiş, “Oxunması zəruri olan kitabların Siyahısı”na daxil olan kitablarla bağlı 15 video və audiomaterial hazırlanaraq sosial şəbəkələrdə nümayiş etdirilmişdir.“Nağıl günləri” layihəsi çərçivəsində avqust ayında 36 audionağıl hazırlanaraq sosial şəbəkə hesablarında 148 paylaşım edilmişdir. Hesabat ayında kitabxanalara oxucu gəlişi 3 min 142 nəfər, kitab verilişi isə 19 min 397 nüsxə olmuşdur. Bundan başqa kitabxanalar tərəfindən sağlamlıq imkanları məhdud 18 uşağa səyyar kitabxana xidməti göstərilmişdir.

Uzaqdan mütaliənin əhatə dairəsinin genişləndirilməsi məqsədilə ötən ay elektron kataloqa işlənmiş kitabların sayı 19 min 703-ə, şəbəkəyə işlənmiş kitabların sayı isə 3 min 83-ə çatdırılmışdır. Elektron kitabxanadan 52-si lokal, 63-ü qlobal olmaqla, 115 oxucu istifadə etmişdir.

Gənclərin asudə vaxtının səmərəli təşkili məqsədilə ötən ay Mədəniyyət Nazirliyinin, rayon və şəhər mədəniyyət şöbələrinin gənclər birliklərinin üzvləri arasında “Yaşa və öyrən – II” intellektual bilik yarışı keçirilmişdir.

***Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin mətbuat xidməti***

## Ədliyyə Nazirliyinin rəsmi *“Facebook”* səhifəsi istifadəyə verilib



Müasir dövrdə informasiya texnologiyalarının sürətli inkişafı dövlət orqanlarının da zamanın tələbləri ilə ayaqlaşmasını şərtləndirir. Belə ki, zamanla insanların informasiya almaq imkanları genişlənir. Əvvəllər televiziya, qəzet və jurnallar informasiya mənbəyi hesab olunurdusa, artıq insanların əksəriyyəti internet resurslarının imkanlarından yararlanmağa çalışırlar.

Ədliyyə sahəsində dövlət siyasətinin formalaşmasında iştirak edən və bu siyasətin həyata keçirilməsinin təminatçılarından olan Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyi hüquqi maarifləndirmə işində önəmli rola malikdir. Nazirliyin fəaliyyəti haqqında ictimai maraq kəsb edən məlumatları kütləvi informasiya vasitələrində yaymaqla vətəndaşların hüquq sahəsində maariflənməsinə geniş şərait yaradılır. İnsanların daha çox sosial şəbəkələrdən informasiya mənbəyi kimi istifadəsi nəzərə alınaraq ilin əvvəlində rəsmi “Instagram” səhifəsi, hazırda isə *//www.facebook.com/ edliyye.nakhchivan.mr /* rəsmi “Facebook” səhifəsi ictimaiyyətin istifadəsinə verilib. Belə ki, “Instagram”da olduğu kimi, “Facebook” səhifəsində də muxtar respublika ilə əlaqədar rəsmi xəbərlər, nazirliyin fəaliyyət istiqamətinə uyğun görülən işlər və hüquqi maarifləndirmə xarakterli paylaşımlar edilməsi nəzərdə tutulur. Qeyd edək ki, “Facebook” sosial şəbəkəsinə həm də nazirliyin rəsmi internet səhifəsi olan *edliyye.nakhchivan.az* saytından keçid təmin edilib. Sosial şəbəkə istifadəçiləri vaxt itkisinə yol vermədən ədliyyə orqanlarının fəaliyyəti ilə əlaqədar müraciətlər göndərə, nazirliyin fəaliyyət istiqamətləri üzrə görülən işlərə yanaşı, hüquqi maarifləndirmə mövzularında məlumatlarla daha yaxından tanış ola bilərlər.

***Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin mətbuat xidməti***

## Texniki müayinələr aparılır

Naxçıvan Muxtar Respublikası Dövlət Nəqliyyat Xidməti tərəfindən nəqliyyatın intensiv və keyfiyyətli fəaliyyətinin təmin edilməsi, xəttə çıxacaq nəqliyyat vasitələrinin sazlığının yoxlanılması, eləcə də payız-qış mövsümünün uğurla başa vurulması üçün sentyabr ayının 7-dən etibarən muxtar respublika üzrə sərnişindaşıma fəaliyyəti göstərən avtobus və mikroavtobusların texniki müayinədən keçirilməsinə başlanılıb. Bu məqsədlə xidmət tərəfindən 5 nəfərdən ibarət Texniki Müayinə Komissiyası yaradılıb. Komissiya tərəfindən ilk olaraq muxtar respublikanın ucqar dağ və sərhəd kəndlərinə işləyən avtobusların texniki müayinəsi həyata keçirilib, aşkar olunan çatışmazlıqların aradan qaldırılması üçün sürücülərə lazımi köməklik göstərilib.



Məlumat üçün bildirək ki, sentyabr ayının sonunadək muxtar respublika daxilində 135 marşrut xətti üzrə fəaliyyət göstərən 313 avtobus texniki müayinədən keçiriləcək. Rayondaxili marşrutların texniki müayinəsi isə müvafiq rayon avtovağzallarında aparılacaq. Görülən tədbirlər çərçivəsində avtovağzallarda istilik sistemlərinin işlək vəziyyətə gətirilməsi və çatışmazlıqların aradan qaldırılması da nəzərdə tutulub. Ali Məclis Sədrinin tapşırığına uyğun olaraq qısa müddət ərzində mövcud olan marşrut xətlərinin hamısının hərəkət sxemi hazırlanıb, müntəzəm sərnişindaşıma ilə məşğul olan avtobus və mikroavtobuslara paylanıb, avtobusların görməli yerlərindən asılıb.

Qeyd edək ki, taksi minik avtomobillərinin texniki müayinəsi isə oktyabr ayında həyata keçiriləcək.

**✍ Nail ƏSGƏROV**

### *İtmişdir*

Fərəcov İlqar Hümbət oğlunun adına olan 0200385272 nömrəli VÖEN itdiyindən etibarsız sayılır.

* * *

Şərur rayon Kürkənd sakini Rzayeva Gülşən İmran qızının adına verilmiş JN-16 inventar nömrəli torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

* * *

Şərur rayonu, Mahmudkənd sakini Şəfiyeva Gülü Qulu qızının adına verilmiş JN-1066 inventar nömrəli torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

* * *

Şərur rayonu, Xanlıqlar kəndində yaşamış Cəfərov Tofiq Hüseyn oğlunun adına olan JN-375 inventar nömrəli, 10218018 kodlu torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Nail Əsgərov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 672